


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

10 iyul 2021-ci il
Şənbə

1933-cü ildən çıxır
№ 25 (3538)


# QARABAĞIN BƏRPASI VƏ İNKİŞAFINA YENİ TÖHFƏ

## *Prezident İlham Əliyevin fərmanı ilə ərazi bütövlüyümüzün bərpa olunduğu növbəti dəfə təsdiqləndi*

Məlum olduğu kimi, Prezident İlham Əliyev iyulun 7-də "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərman imzalayıb. Bunu dövlət başçısının uzaqgörən iqtisadi və siyasi strategiyasının daha bir təzahürü kimi qiymətləndirən analitiklər, eləcə də respublikada həyata keçirilən sosial-iqtisadi islahatların davamına yönələn bir addım hesab edirlər.

İndiyədək həyata keçirilən dövlət proqramları regionların iqtisadi gücünü artırmaqla bərabər, biznes və investisiya mühitini də yaxşılaşdırıb. Ardıcıl və məqsədyönlü şəkildə aparılan bu islahatlar bütövlükdə ölkənin iqtisadi və hərbi-müdafiə qüdrətini o həddə qədər yüksəltdi ki, 44 günlük Vətən müharibəsində düşmən üzərində şanlı qələbə qazanıldı.

Fərmanda da qeyd olunduğu kimi, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qarşıda həmin ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi



üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılması məqsədi dayanır. Odur ki, əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılması gündəmə gəlir.

Beləliklə, yeni bölgüyə əsasən, 14 iqtisadi rayon yaradılır. Bu bölgüdə ən çox Qarabağ iqtisadi rayonunu əhatə edən rayonlar diqqət çəkdi. Belə ki, Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarının daxil edilməsilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunduğu növbəti dəfə təsdiqləndi.

Prezidentin fərmanında göstərildiyi kimi, Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları 5 rayonu vahid iqtisadi rayonda birləşdirilməsini də zəruri edir. Bir sözlə, Şərqi Zəngəzur iqtisadi rayonuna Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilib ki, bunun da siyasi-tarixi əhəmiyyəti var.

İqtisadçılar hesab edir ki, Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcək, ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasına, institusional islahatlar aparılmasına xidmət edəcək. Xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq.

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

## *Nazir Vilayət Eyvazov: "Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələr inkişaf etdirilməlidir"*

**İyulun 9-da Daxili İşlər Nazirliyində 2021-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizə, asayişin qorunması və təhlükəsizliyin təmini sahəsində fəaliyyətin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında Kollegiya iclası keçirilib.**





İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısının növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə və işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyi etibarlı təmin etdiyini vurğulayıb. Ötən 6 ayda daxili işlər və prokurorluq orqanları üzrə 14.058 cinayətin qeydə alındığını, açılmasının isə xeyli yaxşılaşdığını qeyd edib.

Nazir cənab Prezidentin sərəncamları ilə polisin və Daxili Qoşunların peşə bayramları ərəfəsində də 26 əməkdaşın və 12 hərbi qulluqçunun dövlət mükafatlarına layiq görüldüyünü, rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verildiyini, həmçinin Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirən 1690 hərbi qulluqçunun dövlət təltiflərinə, o cümlədən 4 nəfərə "Vətən müharibəsi qəhrəmanı" adının verildiyini, habelə xidmətdə fərqlənmiş yüzlərlə əməkdaşın və hərbi qulluqçunun mükafatlandırıldığını bildirib.

General-polkovnik V.Eyvazov bütün bunlarla bərabər, fəaliyyətdə nöqsan və çatışmazlıqların mövcudluğunu, onların ətraflı müzakirə edilib əlavə təşkilati tədbirlər müəyyən edilməklə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov qeydə alınmış cinayətlərin 84,3 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər olduğunu, ötən ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 1,3, adam öldürməyə cəhdlərin 11, oğurluqların 31, soyğunçuluqların 34, quldurluqların 8, avtonəqliyyat vasitələrinin qaçırılmasının 9,6, xuliqanlıqların 6,4, odlu silahın tətbiqi ilə baş verən cinayətlərin 32, yol-nəqliyyat hadisələrinin 0,5, qəzalarda ölənlərin sayının 11, xəsarət alanların sayının 0,5 faiz azaldığını, habelə prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 207 cinayətin açıldığını, axtarışda olan 2200, o cümlədən ağır və xüsusilə ağır cinayətlərdə təqsirləndirilən 248 şəxsin tutulduğunu vurğulayıb.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 435 kriminal qrupun zərərsizləşdirildiyini, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 110 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyini, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 776 kiloqram çox və ya 1 ton 843 kiloqram narkotik vasitə çıxarıldığını, qanunsuz kultivasiya olunan 140 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edildiyini nəzərə çatdırıb.

*Ardı 2-ci səhifədə.*

# Daxili İşlər Nazirliyində Kollegiya iclası keçirilib

**Nazir Vilayət Eyvazov: "Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələr inkişaf etdirilməlidir"**

*Əvvəli 1-ci səhifədə.*

Məruzəetrafı çıxışlarda Nazirliyin aparatının sturuktur qurumlarının və ərazi polis orqanlarının rəisləri görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan konkret tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran daxili işlər naziri Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi polis orqanlarında ümumi işə mənfi təsir göstərən halları nəzərə çatdıraraq diqqəti onların aradan qaldırılması yollarına və qarşıda duran digər vəzifələrə yönəldib, tapşırıq və tövsiyələrini verib. Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələrin inkişaf etdirilməsini, şəxsi heyətin daha böyük əzmlə çalışmasını və əməkdaşların peşəkarlığının yüksəldilməsini hər bir polis orqanının rəhbərindən tələb edib.

Ayrıca olaraq narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib.

Eyni zamanda, vətəndaşlara müraciət edərək narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığın bütün bəşəriyyəti narahat etdiyini, bu bəlaya qarşı mübarizənin Azərbaycanın hüquq mühafizə orqanlarının başlıca vəzifələrindən biri olduğunu, qanunsuz dövriyyədən çıxarılan narkotiklərin həcminin ilbəil artması ilə bərabər ölkəyə gətirilməsinə edilən cəhdlərin çoxaldığını, belə bir vəziyyətin gənclərin narkotik aludəçisi olmaq təhlükəsini artırdığını bildirib.

Problemlə bağlı mediada gedən tənqidi yazıların, sosial şəbəkələrdə aparılan müzakirələrdə səslətdirilən müxtəlif fikirlərin normal hal olduğunu və hər kəsin mövqeyinə və ictimai rəyə hörmətlə yanaşıldığını, bütövlükdə məsələyə cəmiyyətin diqqətindən razılığını ifadə edib. Bu təhlükəni aradan qaldırmaq üçün hər kəsin ümumi işə real köməkliyinin vacibliyini vurğulayıb. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyat tədbirlərinin keçirilidiyini bildirib və fəal vətəndaşlıq mövqeyi sərgiləyən şəxslərə təşəkkür edib.

Yeniyetmələr və gənclər arasında aparılan izahat işlərinə də toxunan nazir bu işin konkret həyat nümunələrinə əsaslandıqda daha təsirli olduğunu, bütün hallarda əsas diqqətin ölkədə narkotiklərə tələbatın azaldılmasına yönəlməsinin əhəmiyyətini nəzərə çatdırıb. Eləcə də COVID-19 pandemiyasından əvvəl respublikanın bütün təhsil müəssisələrində antinarkotik mövzuda davamlı tədbirlərin keçirildiyini, həmin tədbirlərdə gənclər təşkilatlarının fəallığını, ölkədə tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar antinarkotik təbliğat sahəsində vətəndaşların köməyinə həmişəkindən çox ehtiyac duyulduğunu bildirib. Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən bloggerlərdən daha böyük fəallıq gözləntilərinin olduğunu, "Narkotiklərə yox!" devizinin hamılıqla dəstəklənəcəyinə inandığını qeyd edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzfələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcəkdir.

# Andlarına sadiqdirlər

## Polisdən "yazan"lar da bu fədakarlığın şahidi oldular

Bu günlərdə Bakıda qəzaya uğradıqdan sonra yanmağa başlayan avtomobildən sürücünü xilas edən yol polisi əməkdaşlarının qəhrəmanlığı sosial şəbəkələrdə geniş müzakirə olundu. Hər an partlamaq ehtimalı olan maşından sürücünü çıxaran əməkdaşlarımızın həyatı üçün real təhlükə yaransa da, onlar özlərini, sözün əsl mənasında, odun-alovun içinə atıb həyat qurtardılar.




Sosial platformalarda yayılan görüntülərdə yolun ortasında qəza nəticəsində çevrilmiş və alışmış avtomobilə doğru qaçan iki polis əməkdaşının maşının içindəki şəxsi çıxarmağa çalışdıqları aydın görünür.

Bu fədakarlığa cəsarətlərilə imza atanlar Bakı şəhər BPİ DYPİ-nin inspektorları, polis baş serjantları Rəşad Müseyibli və Rüfət Əlizadədir.

Hadisə barədə "Polis"ə danışan Rəşad Müseyibli bildirib ki, onlar Pirallahı yolunda xidmətdə olarkən qəzaya uğramış nəqliyyat vasitəsini görüb, dərhal ona yaxınlaşıblar. Xəsarət almış şəxsi nəqliyyat vasitəsindən təxliyyə edən polislər alışan avtomobili də söndürüblər. Avtomobilin içərisindəki sürücünün qolunun iki yerdən qırılmasına baxmayaraq, onu ehtiyatla çıxarıb xəstəxanaya çatdırılmasını təmin ediblər.

Hadisənin digər qəhrəmanı Rüfət Əlizadə deyib ki, oxşar hadisələrlə tez-tez qarşılaşırlar. Qəza zamanı hadisə yerinə ilk çatan yol polisi olduğuna görə xəsarət alanlara yardım etmək, həyati riskləri aradan qaldırmaq onların öhdəsinə düşür. Bu hadisədə isə vəziyyət daha mürəkkəb idi. Vaxt itirmək faciəyə yol aça bilərdi. "Sözün doğrusu, ekstremal hadisələr zamanı təhlükə və öz həyatın haqqında fikirləşməyə vaxt qalmır. Nəqliyyat vasitəsi qəza törədir, alışıb yanır, içində də vətəndaş... Avtomobildə olan şəxs çarəsiz vəziyyətdə kömək gözləyir. Bir saniyə gec reaksiya alovun güclənməsi, ümidin və həyatın sönməsi deməkdir. Polislər belə anlarda öz həyatlarını düşünmürlər",-deyən həmkarımızın sözləri polisin xilaskarlıq mahiyyətini bir daha yada salır.

**Redaksiyadan:** ***Hər bir canlının özünü qoruma instinkti var və təhlükə hiss edən kimi, o "işə düşür". Ancaq bir çox peşə sahibləri, o cümlədən polis də daxil olmaqla, onlar təhlükənin qoynuna atılırlar. Çünki geyindikləri mundir, içdikləri and onları xilaskar kimi nəzərlərdə ucaldır.***

*Rəşad Metiyev,*
*polis baş serjantı*

# POLİS AKADEMİYASININ daha bir uğuru



**Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə ADA Universitetində Beynəlxalq Humanitar Hüquq üzrə Milli Müsabiqə keçirilmişdir.**

Müsabiqənin hazırlıq mərhələsində BQXK-nın Azərbaycan nümayəndəliyinin hüquq müşavirləri Jalə Əzizova və Qumral Aslanova, Heydər Əliyev adına Ali Hərbi Məktəbdən Ramid Hüseynov BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova, ADA Universitetindən Cavid Qədirov, Daxili İşlər Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəis müavini, polis mayoru Elnur Aslanov, Bakı Dövlət Universitetindən Rübabə Abdullayeva hazırlıq mərhələsində "Teams" proqramı üzərindən onlayn çıxışlar edərək müsabiqəyə qatılan nümayəndələr üçün vebinar keçirmişlər.

Mühazirələrdən sonra komandalar növbəti mərhələyə keçmək şansı əldə etmişlər.

Növbəti mərhələ 29-30 iyun tarixlərində baş tutmuşdur. Müsabiqədə Polis Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası və ADA Universitetinin tələbələrindən ibarət 5 komanda təmsil olunurdu.

Müsabiqəyə Polis Akademiyasının "Dövlət və hüquq nəzəriyyəsi" kafedrasının baş müəllimi, polis polkovnik-leytenantı Zaur Bağırovun təşkilatçılığı ilə qatılan 3-cü kursun kursantları Muhəmməd Nəsibli, Süleyman Süleymanov və Məhəmməd Məmmədli yüksək göstəricilərlə yadda qalmışlar.

Belə ki, kursantların rol-oyunu-simulyasiya və praktiki tapşırıqlar zamanı beynəlxalq Huma nitar hüquq normaları barədə bilikləri, eləcə də bu normaları tətbiq etmə bacarıqları xüsusi qiymətləndirilmiş, gərgin mübarizənin sonunda gələcəyin polislərinin komandası birinci olmuşdur. Bakı Dövlət Universitetinin komandası 2-ci yeri, ADA Universitetinin komandası isə 3-cü yeri tutmuşdur.

Qeyd edək ki, iştirakçılar müstəqil hakimlər heyəti tərəfindən qiymətləndirilmişdir.

*"Polis"*

# Arzular çin olanda

## Kəlbəcərdən olan həmkarlarımızın da Vətən həsrətinə son qoyuldu

Kəlbəcər RPŞ-nin əməliyyt işi üzrə rəis müavini, polis polkovnik-leytenantı Yelmar Quliyevlə 2018-ci ildə tanış olmuşdum. Həmin vaxt ondan müsahibə alanda Kəlbəcərin işğaldan azad olunacağı günün çox da uzaqda olmadığını və bu müsahibənin davamının Kəlbəcərdə yazılacağına əminliyini bildirmişdi. Nəhayət, o gün gəldi, Kəlbəcərə qayıtdıq. Hər ikimiz bu "şərtimizi" xatırlayırdıq. Düzü, işin çoxluğundan bu söhbətə qayıtmağa macal tapmamışdıq. Saxlamışdıq əlamətdar günlərin birinə. Qismət bu günə imiş.




***- Peşə günümüzü Kəlbəcərdə qeyd edirsiniz. Həsrət, nisgil bitib. Acılı günlər tarixə qovuşub. İllər sonra doğma torpağa ayaq basmaq necə bir hissdir?***

- Çox qəribə duyğular keçirirdim. Həm sevinc hissi yaşayırdım, həm də kədərlənirdim. Ona görə sevinirdim ki, 30 il həsrətini çəkdiyim torpağıma, doğulduğum yurd yerinə qayıdırdım. Kədərlənirdim ki, o yalçın qayalardan başqa heç nə qalmayıbdı ata ocağında. Düşmən burada yüzillərlə tikdiklərimizi söküb aparıb, apara bilmədiklərini də, yandırıb, oda qalayıb gedib. Vətən həsrətinə dözə bilməyən ata-analarımız dünyadan köç etsələr də bu gün onlatın ruhu şaddır. Doğma ocaqlarımızın işığı yenidən yanacaq, ocağı qalanacaq. Biz bütün dünyaya qəhrəman xalq olduğumuzu, dövlətimizin, ordumuzun gücünü bir daha sübut etdik. Bu gün ölkə başçımızın dəmir yumruğuna, iradəsinə, insanlarda inam və etibar ən yüksək səviyyədədir. Vətənpərvər görmək istədiyimiz gənc nəsil yetişib. Kəlbəcərin işğalından sonra doğulan gənclərin bu yerlərə qayıtmağa can atması bizi qürurlandırır. Şükürlər olsun artıq öz rayonumuzda xidmət aparırıq. Mən bu xoşbəxtliyi sözlə ifdə edə bilməərəm.

***-Kəlbəcər tarixi abidələrlə zəngindir. Digər işğalda olan ərazilərimizdəki kimi burada-damı mədəni irsimiz məhv edilib?***



-Digər işğaldan azad olunan rayonlarda olduğu kimi Kəlbəcərdə keçmişə aid izimiz, mədəniyyətimiz, illərlə qurub yaratdıqlarımız düşmən vandalizminə məruz qalıb. Məscidlər yerlə-yeksan olunub, hətta qədim Alban tarixinə aid abidələrimiz haylaşdırılıb. Bu da bizim necə mənfur bir düşmənlə mübarizə aparmağımıza bariz nümunədir.

*Ardı 3-cü səhifədə.*



# Vətən deyən oğullar...

## Ölümsüzlüyə qovuşmaq onların alın yazısıdır

Vətən müharibəsinin zəfərimizlə başa çatması dünyanın görmək istəmədiyi bir həqiqəti ortaya qoydu - biz güclüyük, qalibiyyət isə haqqımızdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin təbirincə desək: “Müzəffər Ordumuz qarşısında duran vəzifənin öhdəsindən məharətlə gəlib hədəfinə çatdı. Hədəf ərazi bütövlüyümüzün bərpa edilməsi idi və Azərbaycan hərbi qələbəni qazandı. Torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdik. Döyüşərək, qan tökərək, şəhidlər verərək ədaləti bərpa etdik. Şəhidlərimizin qanını yerdə qoymadıq. Düşməndən intiqamımızı döyüş meydanında aldıq”.

İkinci Qarabağ müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin ayrı-ayrı qoşun növlərinə məxsus xüsusi təyinatlı bölmələrin özünü təsdiqi üçün əsl mübarizə meydanı oldu. Bu müharibədə dünya Azərbaycan ordusunu, silahlı qüvvələrimizin xüsusi təyinatlılarını sanki yenidən kəşf etdi. Qürurla deyə bilərik ki, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının xüsusi təyinatlıları da Vətən müharibəsində Ali Baş Komandanın etimadını doğrultdular.

**Şəhid xüsusi təyinatlı gizir Həsənov Faiq Hüseyn oğlu Daxili Qoşunların Sumqayıt şəhərində yerləşən “N” saylı hərbi hissəsində xidmət edib.**

O, 1990-cı il iyulun 28-də Bakı şəhərində doğulub. Səbail rayonundakı Osman Mirzəyev adına 190 saylı orta məktəbi bitirib. Kiçik yaşlarından idmana həvəslə yanaşdığından fiziki hazırlığına xüsusi diqqət yetirib.

2008-2012-ci illərdə Mingəçevir Politexnik İnstitutunda (hazırda Mingəçevir Dövlət Universiteti) ali təhsil alıb. Burada iqtisadiyyatın tənzimlənməsi ixtisasına yiyələnib. 2012-2013-cü illərdə Faiq Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Həmin vaxtdan etibarən gələcək həyatını iqtisadçı peşəsinə deyil, hərbi xidmətə bağlamaq haqqında fikirlərini doğmaları ilə bölüşüb. Birinci Qarabağ müharibəsində şəhid olmuş əmisi Elşən Həsənovun, habelə dayısı, qazi Mahir Rzayevin keçdiyi döyüş yolu onun hərbçi kimi yetişməsinə təsirsiz ötüşməyib.

2015-ci ilin avqust ayında silahdaşımız Daxili Qoşunların sıralarına hərbi xidmətə qəbul edilib. Həmin ildən 2020-ci ilə kimi F. Həsənov Daxili Qoşunların Sumqayıt şəhərindəki “N” saylı hərbi hissəsində xüsusi vasitələrin tətbiqi bölməsində manevr qrupunun yarımqrupunda atıcı, xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində götürmə qrupunun yarımqrupunda atıcı və xüsusi təyinatlı dəstənin texniki vəzifələrində xidmət edərək, ona göstərilən etimadı doğruldub.

Döyüş və mənəvi-psixoloji hazırlığında, funksional vəzifələrinin icrasında əzmkarlığı ilə fərqlənib.

2020-ci ilin 27 sentyabrında Vətən Müharibəsi başlayanda gizir F.Həsənov döyüş əməliyyatlarına ilk cəlb olunanların sırasında idi. O və silahdaşları müharibənin ilk günlərində Cəbrayıl-Füzuli rayonlarının ərazilərində çətin döyüş tapşırıqlarını yerinə yetiriblər. Belə ki, düşmənin bir neçə müdafiə xəttini yarıb onun müqavimətini qırmaq, müxtəlif növ silah-sursatını, texnikasını məhv etmək və ya qənimət götürmək, nəzarətimizə keçən ərazilərdə möhkəmlənmək üçün hərbi qulluqçularımız qətiyyətlə vuruşublar.

“N” saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində atıcı çavuş Sirus Müsüzadə bunları söyləyir: “Faiq həmişə öndə idi, hər bir çətinliyə dözürdü, o, müharibə gerçəkliyində yoldaşlarına diqqətcil və qayğıkeş olmağı da bacarırdı. İşğaldan azad edilən torpaqlarımızda irəliləyərkən “Bu yerləri görmək və ilk qədəm basmaq bizə qismət oldu”, - deyirdi. 2020-ci il oktyabrın 2-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ətrafında döyüşdə Faiq qapalı kəllə-beyin travması aldı. Əhmədbəylidəki hərbi qospitala yerləşdirilsə də bir neçə gündən sonra yenidən yanımıza qayıtdı”.

Oktyabrın 5-də gizir F.Həsənov, dəstənin digər hərbi qulluqçusu gizir Mayis Səmədov və bir qrup hərbi qulluqçumuz Cəbrayıl-Füzuli rayonları istiqamətində ön mövqeyimizə lazımi təminat çatdırmaq, oradakı yaralılarımızı çıxarmaq üçün gedərkən yolda düşmənin pusqusuna düşüblər. Qeyri-bərabər döyüşdə Faiq, Mayis və Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin 6 nəfər xüsusi təyinatlısı son nəfəslərinədək vuruşaraq şəhidlik zirvəsinə ucalıblar. İşğalçılar o döyüşdə ağır itki veriblər.

Şəhid hərbi qulluqçumuz Bakıda 2-ci Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, Azərbaycan Respublikası müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli müvafiq əmri ilə gizir F.Həsənovun ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Şücaətə görə” medalları ilə təltif edilib.

*Yalçın Abbasov,*
*DİN Daxili Qoşunlarının veteranı*

# NARKOTİK qədər zərərli...

## “Səssiz ölüm”ə qapı açanların qapısını bağlamalıyıq

**Narkotiklərlə mübarizə cəbhəsinin önündə gedən hüquq-mühafizə orqanlarının cəmiyyətin, ictimaiyyət nümayəndələrinin dəstəyi uğurlu nəticə əldə etməyə imkan yaradır. Çünki ictimai qınaq doğru istifadə olunsa, mübarizənin digər forması olan maarifləndirmə işi vaxt itirilmədən həyata keçirilsə, bu, kifayət qədər güclü silahdır və narkomaniya bəlasına qarşı mübarizədə aparıcı rol oynaya bilər.**

Bu məsələyə bir qədər sonra qayıdacağıq.

Narkotikin, xüsusilə "patı" adı ilə tanınan metamfetamindən istifadə edən gənclərin sayının artması barədə sosial şəbəkələrdə gedən müzakirələr əksər halda, hüquq-mühafizə orqanlarının apardığı qətiyyətli mübarizəyə kömək etmir. Müzakirə mövzusuna çevrilən bəlanın qarşısının alınması istiqamətində təkliflər vermək, müəyyən layihələr təqdim etmək əvəzinə, bəzən qərəzli mövqe nümayiş etdirmək təəssüf doğrurur.




Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsilə məşğul olan şəxslərin aşkar edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı əməliyyatları görməzlikdən gəlmək mümkün deyil. Çünki belə məlumatlar vaxtaşırı açıqlanır, keçirilən tədbirlər zamanı müsadirə edilən narkotik vasitələr ictimayyətin diqqətinə çatdırılır. Bir sözlə, əhalinin mütləq əksəriyyəti polisin əməliyyatları barədə məlumatlıdır və həqiqəti bilir.

Elə bu günlərdə sosial şəbəkələrdə narkotik vasitələr olan “patı”, “şüşə” adlanan psixotrop maddələr satan daha 9 nəfər saxlanılaraq, məsuliyyətə cəlb edildi. Onlardan 30 kiloqramdan artıq metamfetamin, o cümlədən 4778 ədəd psixotrop tərkibli həb aşkar edilərək götürülüb.

Daha öncə Sabunçu rayonunda istixanalarda kultuvasiya yolu ilə yetişdirilən 15 tondan artıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılmış, onları əkib-becərənlər tutulmuşdu.

Bu, cəmi bir neçə gün ərzində “ağ ölüm” satanlara vurulan zərbənin rəqəmlərlə ifadə olunan həcmidir. İlin göstəriciləri Nazirliyin Kollegiya iclasında ətraflı açıqlanıb deyə, təfsilata varmadıq. Sadaladıqlarımız da kifayət edir ki, polisin narkotiklərə qarşı kəsərli mübarizəsində sərgilədiyi qətiyyətin şahidi olaq.

Deməli, son aylarda sosial şəbəkələr üzərindən narkotik vasitələrin satışının artması barədə ictimai ovqatın manipulyasiya edilməsi təsadüf deyil. Polisin sərt tədbirləri sosial şəbəkələr vasitəsilə ölkəmizdə narkotik vasitələrin satışını təşkil edənləri və xaricdən idarə olunanları virtual aləmdə müqavimət göstərməyə məcbur edib. Açıq-aşkar narkotik satışı elanları verən səhifələrin adminləri ölkə xaricində olduğuna görə onlar özlərinə “at oynatmaq” üçün meydan tapırlar. Şübhəsiz ki, onların təsirinə düşüb qanunsuz ticarətə qoşulmaq istəyənlər də tapılır. Son əməliyyat tədbirində polisin xüsusi texniki vasitələrdən istifadə etməklə şübhəli şəxsləri ifşa edərək tutması bunu təsdiq edir. Məsələnin əsas mahiyyəti ondan ibarətdir ki, ölkə daxilində buna cəhd edən hər kim olursa olsun, virtual dünyada qeybə çəkilməyə çalışsa belə polis onu tapıb qanun qarşısına çıxarır.

Gələk ictimai qınaq məsələsinə.

İctimai qınağın doğru istifadə edilmə şərtini xüsusi qeyd etmişdik, ona görə ki, son dövrlər bu “silahı” yanlış istiqamətə tuşlamaqla, narkotiklərlə yetərincə mübarizə aparılmadığı təəssüratı yaratmağa cəhdlər edilir. Buna ilk növbədə ictimaiyyətin özü etiraz etməlidir, çünki ən azı polis narkotiklərlə mübarizəni hamının gözü qarşısında aparır. Digər tərəfdən, əgər həqiqətləri görüb dilə gətirməsək, bu yalan ayaq tutar, hətta, bəlkə yeriyər də. Bu isə cəmiyyət üçün elə narkotik qədər zərərlidir.

*Könül Nəbizadə,*
*BDYPİ-nin əməkdaşı*

# Pandemiyaya qarşı mübarizə uğurla davam edir

**Ölkəmizdə iki ilə yaxındır ki, pandemiya ilə mübarizəyə dövlətin bütün strukturları kimi daxili işlər orqanları da cəlb olunub.**

Yayılmış koronavirus infeksiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaq üçün bu bəşəri bəlaya qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması prosesi uğurla davam etdirilir.



Hazırda Daxili İşlər Nazirliyinin 1 və 2 nömrəli poliklinikalarında da DİO-da xidmət edən əməkdaşların peyvəndlənməsi, həmçinin ikinci doza vaksinin vurulması prosesi aparılır. Vaksinasiya ilə bağlı “Polis”in suallarını cavablandıran DİN-in 1 nömrəli Poliklinikasının infeksionist həkimi, tibb xidməti mayoru Sevinc Tağıyeva bildirib ki, peyvəndlənmənin başlandığı gündən indiyədək 1 nömrəli poliklinikada 9 mindən çox əməkdaşa birinci, 5 mindən çox əməkdaşa isə ikinci doza vaksin vurulub. Həkim infeksionist hər birimizin vaksinasiya prosesində aktiv iştirak etməklə dövlətimizin virusla mübarizə strategiyasını daha da gücləndirdiyini qeyd edib.

Yeri gəlmişkən, DİN-in 1 və 2 nömrəli poliklinikalarında, o cümlədən A.Heydərov adına Respublika Hospitalında COVID-19-a qarşı vaksinasiya prosesini həyata keçirmək üçün bütün zəruri tədbirlər görülüb. Bu məqsədlə qəbul, qeydiyyat, nəzarət, xüsusi peyvənd otaqları və həkim briqadaları ayrılıb ki, peyvənd olunandan sonra DİO əməkdaşlarının səhhəti nəzarətdə saxlanılsın.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Arzular çin olanda

## Kəlbəcərdən olan həmkarlarımızın da Vətən həsrətinə son qoyuldu

*Əvvəli 2-ci səhifədə.*

**-Görünür ki, başqa bir həvəslə xidmət edirsiniz doğma torpağınızda. Necə gedir xidmət?**

-Hamı sevinc və ruh yüksəkliyi ilə xidmət edir. DİN rəhbərliyi tərəfindən xidmət şəraitinin yaxşılaşdırılması üçün bütün lazımi tədbirlər görülüb. Bu gün Kəlbəcərin o sazlı-sözlü, axar-baxarlı günlərini geri qaytarmaq üçün hər birimiz səfərbər olmuşuq. İşğaldan azad olunmuş ərazilərdə artıq quruculuq işlərinə başlanılıb. İnanırıq ki, çox yaxın zamanda bu yerlər, sözün əsl mənasında, cənnətə dönəcək. Bu gün düşmənin atıb qaçdığı silah-sursatın yığılması, mina və digər partlayıcı vasitələrin aşkar edilib zərərsizləşdirilməsi üçün digər dövlət qurumları ilə birgə tərəfimizdən lazımi tədbirlər görülür. Özünüz də bilirsiniz ki, bu yerlərin çətin relyefi, dəyişkən iqlimi var. Xidmətimizi qurmaq üçün şöbənin maddi-texniki təminatı müasir tələblərə cavab verir. Tele-kommunikasiya vasitələri, nəqliyyat, qidalanma məsələləri yüksək səviyyədə təmin olunub. Qalır bizim canla-başla xidmət aparmağımız.

Biz XXI əsrə öz qələbə möhrümüzü vurduq. Nə qədər sevincli olsaq da bu torpaqlar uğrunda canından keçən vətən oğullarını da unutmamalıyıq. Vətən Müharibəsi Azərbaycan Dövlətinin necə qüdrətli bir dövlət olduğunu, xalqımızın qəhrəmanlığını, ordumuzun gücünü, əzəmətini göstərdi. Bundan sonra artıq bizi gözəl günlər gözləyir. Yaşayıb yaratmalı, dövlətimizin, Prezidentimizin ətrafında daha da sıx birləşməli, göstərilən etimadı doğrultmalıyıq.

*Eşqin Qasımov,*
*polis baş leytenantı*

# QALİB XALQIN QALİB İDMANÇISI

**Ölkəmizdə idmanın inkişafına töhfələr verən DİN İdman Cəmiyyətinin yetirmələri bu gün Azərbaycanın bayrağını böyük arenalarda dalğalandırır, himnimizi səsləndirirlər.**




Onlardan biri də Dünya Kubokunun mükafatçısı, bu günlərdə Türkiyənin Konya şəhərində Dünya Kəməri uğrunda keçirilən döyüşün qalibi, kikboksçumuz Şikar Bədəlovdur.

O, qarşılaşmanın ilk dəqiqəsində İranlı rəqibi İbrahim Xezaini nokautla məğlub edib.

"Qalib xalqın idmançısına da yalnız qələbə yaraşır" - deyən DİN İdman Cəmiyyətinin yetirməsi bu qələbəsini şəhidlərimizə, qazilərimizə və hərbçilərimizə həsr etdiyini bildirib.

Yeri gəlmişkən, Şikar Bədəlovu bu döyüşə Azərbaycan Kikboks Federasiyasının milli yığma komandasının böyük məşqçisi, əməkdar məşqçi, DİN Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyev hazırlayıb. O, "Polis"ə bu qələbənin təsadüfi olmadığını, çəkilən əziyyətin bəhrəsi olduğunu bildirib: Şikar əzmlə məşq edib, istəyinə nail olub. İdmançımız indiyədək qatıldığı 9 professional döyüşdə 8 qələbə qazanıb. Bu döyüşlərdə üç rəqibini nakautla məğlub edib.

*R.Əliyeva*

# Həmkarımız Kubok qazanıb

**Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasında daxili işlər orqanlarının idmançı əməkdaşlarının da müstəsna yeri var.**



Həmkarlarımız sübut edirlər ki, cinayətkarlığa qarşı mübarizədə və əmin-amanlığın qorunmasında peşəkar olmaqla yanaşı, idman arenalarında da güclü rəqibdirlər. Belə əməkdaşlarımızın birindən növbəti dəfə qələbə sorağı almışıq.

Belə ki, 29 iyun – 2 iyul tarixlərində Ukraynanın Koblevo şəhərində Universal döyüş idman növü üzrə Dünya Kuboku keçirilib. Yarışda ölkəmizi uğurla təmsil edib Vətənə dönən idmançılarımız Heydər Əliyev Beynəlxalq Hava Limanında böyük coşqu ilə qarşılanıblar.

İyirmi səkkiz ölkədən yeniyetmə, gənclər və böyüklərdən ibarət 400-ə yaxın idmançının iştirak etdiyi yarışda Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis serjantı, əməkdar idman ustası Nicat Əliyev 87 kq çəki dərəcəsində Dünya Kubokunun qalibi olub.

Həmkarımız "Polis"ə bildirib ki, yarışda Moldova, Ukrayna və finalda Özbəkistan idmancısı üzərində inamlı qələbə qazanıb. Finalda Avropa çempionu ilə döyüşsə də, ona da tam üstünlüklə qalib gələn idmançımız qələbəsini torpaqlarımız uğrundan canlarından keçib şəhidlik zirvəsinə ucalan igid oğullarımıza və Polis günü münasibətilə bütün polislərə həsr etdiyini bildirib.

Qeyd edək ki, Dünya Kubokunda Azərbaycanın yığma komandası 24 idmançı ilə təmsil olunub. Həmin yarışdan ölkəmizə 8 qızıl, 2 gümüş və 9 bürünc medal gətirilib.

*R.Mehtiyev*


# Xəzri sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 01 iyun - 15 sentyabr 2021-ci il tarixlərdə mövsüm üzrə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, yaşayış xərcləri, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

**01 iyun - 15 sentyabr 2021-ci il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135,00 manat | 210,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |


**Onu İngiltərədə "yatağan", İspaniyada "şiş"(konus), Kanadada "dalğa", Fransada isə "berlin yastıqları" adlandırırlar. Biz isə avtomobilin sürətinin aşağı salınmasını təmin edən xüsusi maneə deyirik.**

İnsanların sıx yaşadığı ərazilərdə xüsusi maneələrə teztez rast gəlmək olar. Bu da yüksək sürətlə hərəkət edən nəqliyyat vasitəsinin məcburi şəkildə sürətinin azaldılması, bədbəxt hadisələrin qarşısının alınması üçün nəzərdə tutulub.

Bu maneələr sürücüyə siqnal ötürür və o da qalxır. Belə olan halda isə sürücü məcbur olub sürət həddini aşağı salır.

Süni maneələr ilk dəfə olaraq ABŞ-da yolun təhlükəli hissələrində nəqliyyat vasitələrinin sürətini, yeni hərəkət trafikini



# Xüsusi maneələrin yaranma tarixi

Xüsusi maneələr monolitik asfalt-betondan, həmçinin yüksək keyfiyyətli rezin və polimer materiallardan hazırlanır.

Məsələn, Səudiyyə Ərəbistanı Krallığının paytaxtı ər-Riyad yollarında quraşdırılan maneələr xüsusi arakəsmələrdən ibarətdir. Həmin arakəsmələr isə orada nadir hallarda baş verən leysan zamanı yağış suyunun süzülüb getməsi və gölməçələrin yaranmaması üçün nəzərdə tutulub.

Yaxın qonşumuz sayılan Rusiyada hərəkət sürətinin aşağı salınmasını təmin edən və nəqliyyatın hərəkətinə uyğun qalxıb - enən maneələr quraşdırılıb. Belə ki, videoregistrator hər hansı bir nəqliyyat vasitəsinin sürət həddinin aşması zamanı xüsusi maneəyə siqnal ötürür və o da qalxır.

məhdudlaşdırmaq üçün 20-ci əsrin əvvəllərində tətbiq olunmağa başlanılıb.

O dövrdə Amerika Birləşmiş Ştatları sürətli və kütləvi avtomobilizasiya dövrünü yaşayırdı. Təsərrüfat sahibləri magistral yollarından keçən heyvanların təhlükəsizliyindən çox narahat idilər.

Yeri gəlmişkən, bəzi ölkələrdə xüsusi maneələr işlənmiş təkərlərdən və plastik konstruksiyalardan da hazırlanır.

Süni maneələrin müasir versiyaları buzlanma əleyhinə sistem ilə təchiz edilə bilər. Qışda qar təmizləyən texnikanın səmərəli işləməsi üçün onların demontaj (bağlanıb-açılması) edilməsi tövsiyə olunur.

*Hazırladı: R.Vəliyev*

# "Xaşxaş-2021" tədbirləri davam etdirilir

Kəpəz RPİ-nin əməkdaşları Məhsəti qəsəbə sakini X.Əliyevə məxsus həyətyanı sahədən 29 ədəd, Ağdaş RPŞ-nin əməkdaşları Dəhnəxəlil kəndi ərazisində şəhər sakini E.İsmiyev tərəfindən yetişdirilmiş 17 ədəd, Xaçmaz RPŞ-nin əməkdaşları Xudat şəhər sakini N.Niftəliyevə məxsus həyətyanı sahədən 43 ədəd, Şabran RPŞ-nin əməkdaşları Dəvəçi kənd sakini, əvvəllər məhkum olunmuş T.Balaqədəşova məxsus həyətyanı sahədən 34 ədəd, Sabunçu RPİ 14-cü PB-nin əməkdaşları Maştağa qəsəbə sakini A.Şəkərova məxsus həyətyanı sahədən 44 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolu, BMCMİ-nin əməkdaşları Buzovna qəsəbə sakini E.Təhməzovun həyətyanı sahəsindən 22 ədəd çətənə kolu və 265 qram marixuana, BNMİ-nin əməkdaşları Xaçmaz rayonunun Nabran qəsəbə sakini C.Cavatova məxsus həyətyanı sahədən 7 tondan artıq çəkidə 5175 ədəd çətənə kolu və 48 kiloqram 220 qram marixuana, BNMİ QBRŞ-nin əməkdaşları İsmayıllı rayonu ərazisində Kürdməşı kənd sakini R.Əhədova məxsus həyətyanı sahədən 39 ədəd çətənə kolu və 1,9 kiloqram marixuana, Bərdə RPŞ-nin əməkdaşları Saatlı kəndində yaşayan A.Mejdunovun evinin həyətyanı sahəsindən 5 ədəd çətənə kolu və 1,3 kiloqram qurudulmuş marixuana aşkar edərək götürmüşlər.

Nizami (Gəncə) RPİ-nin əməkdaşları tərəfindən Gəncə şəhəri ərazisində 2 hektar sahədən çəkisi 1,3 tondan artıq 4021 ədəd, Ağdam RPŞ-nin əməkdaşları tərəfindən Cinli kəndi ərazisində 10 hektar sahədən çəkisi 1,3 tona yaxın 2682 ədəd, Zaqatala RPŞ-nin əməkdaşları tərəfindən Aşağı Çardaxlar kəndi ərazisində 3 hektar sahədən çəkisi 2,1 ton olan 2500 ədəd, Xaçmaz RPŞ-nin əməkdaşları tərəfindən Fərzəlioba kəndi ərazisində 319 ədəd, Xocavənd RPŞ-nin əməkdaşları tərəfindən Binə kəndi ərazisində 1.2 hektar sahədən 836 kiloqram çəkidə 2352 ədəd, Zəngilan RPŞ və DSX-nin əməkdaşları tərəfindən Mincivan qəsəbəsi ərazisində 330 kiloqram çəkidə 1521 ədəd, Füzuli RPŞ-nin əməkdaşları tərəfindən Qacar kəndi ərazisində çəkisi 217 kiloqram olan 1263 ədəd yabanı halda bitmiş çətənə kolları aşkar edilərək məhv edilmişdir.

## İyul ayının 1-dən 8-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 254 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 72 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 151, o cümlədən borclu şəxs qismində axtarışda olan 119 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 147 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9305
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik